Azərbaycan Respublikasının
Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyası

# Mediasiyaya dair qanunvericilik tənzimlənməsi



“Mübahisələrin həlli, məhkəmə sistemi və hüququn aliliyi”
İşçi Qrupu

AZƏRBAYCAN RESPUBLİKASI ƏDLİYYƏ NAZİRLİYİ

Mediasiya ölkəmizdə mübahisələrin alternativ həll yollarından biridir.

Mediasiyanın təşkili sahəsində ictimai münasibətlər, mediasiyanın məqsədlərini, prinsiplərini, həyata keçirilməsi qaydalarını və mediatorların statusunu **“Mediasiya haqqında” Azərbaycan Respublikasının Qanunu** (https://e-qanun.az/framework/41828) ilə tənzimlənir.

Qanun 2019-cu il 29 mart tarixində qəbul edilmiş və 2021-ci il iyulun 1-dən qüvvəyə minmişdir.



**Mediasiya** – mediatorun (mediatorların) vasitəçiliyi ilə tərəflər arasında yaranmış mübahisənin qarşılıqlı razılıq əsasında həlli ilə bağlı adıçəkilən Qanunla müəyyən olunan prosesdir (*Qanunun 1.0.1-ci maddəsi*).

**Mediator** - peşəkar əsasda mediasiya prosesinin həyata keçirilməsi üçün tərəflərin cəlb etdiyi və ya mediasiya təşkilatı tərəfindən təyin olunmuş, həmin Qanunun tələblərinə cavab verən fiziki şəxsdir (*Qanunun 1.0.3-cü maddəsi*).

**Mediasiya təşkilatı** - mediasiya xidmətlərinin marketinqini, əmək müqaviləsi və ya müvafiq mülki-hüquqi müqavilə bağladığı mediatorların xidmətləri üçün haqqın və digər xərclərin ödənilməsinə dair qaydanı müəyyən edən, mediasiya zamanı danışıqların aparılması üçün şərait yaradan, Qanunla və ya tərəflərin razılığı ilə müəyyən edildiyi hallarda mediasiya prosesini aparmaq üçün mediatorları təyin edən, habelə mediatorların effektiv fəaliyyətinə yönələn digər tədbirlər həyata keçirən qeyri-kommersiya hüquqi şəxsidir (*Qanunun 11.1-ci maddəsi*).



# Mediasiya vasitəsi ilə həll oluna bilən mübahisələr

Ölkəmizdə mediasiya:

**- mülki;**
**- kommersiya;**
**- ailə;**
**- əmək;**
**- inzibati hüquq münasibətlərindən irəli gələn mübahisələr üzrə aparılır.**

Lakin belə mübahisələr mediasiyada iştirak etməyən üçüncü şəxslərin və ya məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan, yaxud məhdud fəaliyyət qabiliyyətli hesab edilən şəxslərin hüquqlarına toxunduqda həmin mübahisələr üzrə **mediasiya keçirilə bilməz**.



## Mediasiyanın həyata keçirilməsi əsası nədir?

Mediasiya prosesi tərəflər arasında bağlanan **“mediasiya prosesinin tətbiqi barədə müqavilə”** əsasında və ya **ailə və əmək** münasibətlərindən irəli gələn mübahisələr üzrə ilkin mediasiya sessiyasında iştirak etməklə həyata keçirilir.
Müqavilə istər mübahisənin məhkəməyə verilməsinə qədər və ya məhkəmədə işə baxılan zaman tətbiq edilə bilər və tərəflər mediasiya prosesinin istənilən anında mediasiyadan imtina edə bilərlər.

## Mediasiya məcburidirmi?

Yalnız **ailə** və **əmək** münasibətlərindən irəli gələn mübahisələr üzrə tərəflərin məhkəməyə müraciət etməmişdən əvvəl ilkin mediasiya sessiyasında iştirakı **tələb olunur** (Qanunun 3.2-ci maddəsi).






# Mediasiyanın elektronlaşdırılması

“Elektron məhkəmə” informasiya sisteminin **Vahid Məhkəmə Portalı**nda **“Mediatorlar”** (https://courts.gov.az/mediators) bölməsində fiziki və hüquqi şəxslər regionlar üzrə mediasiya təşkilatları və mediatorlar barədə ətraflı məlumat (təşkilatın adı, fəaliyyət göstərdiyi ərazi, qeydiyyat nömrəsi, ünvanı, əlaqə vasitələri, qurumun qanuni təmsilçisi, mediasiya təşkilatına üzv mediatorlar və s.) əldə edə bilərlər.

Bununla yanaşı fiziki şəxslər fərdi identifikasiya nömrəsini və doğum tarixini, hüquqi şəxslər isə VÖEN-ni daxil etməklə **ilkin mediasiya sessiyası üçün elektron ərizə dolduraraq mediasiya təşkilatlarına elektron müraciət edə bilər**.






# Mediasiya fəaliyyəti haqqında hesabat

“Elektron məhkəmə” informasiya sisteminin **Vahid Məhkəmə Portalı**nda **“Mediatorlar”** [(https://courts.gov.az/mediators)](https://courts.gov.az/mediators) bölməsində “Mediasiya Şurası - Hesabatlar” başlığı altında Mediasiya! Şurasının 2021-2024-cü illər üzrə hesabatları ilə tanış olmaq mümkündür.



## Mediasiya prosesi hansı müddətdə aparılmalıdır?

Tərəflər mediasiyada bilavasitə və yaxud nümayəndə vasitəsi ilə iştirak edə bilərlər. Mediasiya prosesinin ümumi müddəti 30 gündən (mübahisənin mürəkkəbliyi nəzərə alınaraq tərəflərin razılaşması il daha 30 gün artırıla bilər) artıq olmayaraq davam edə bilər.

## Mediasiya prosesi hansı qaydada aparılır?

Mediasiya prosesinin həyata keçirilməsi "Mediasiya haqqında" Qanuna və Nazirlər Kabinetinin 2019-cu il 5 sentyabr tarixli 385 nömrəli qərarı ilə təsdiq edilmiş "Mediasiya prosesinin həyata keçirilməsi Qaydası"na (https://e-qanun.az/framework/43222) uyğun olaraq aparılır.



## Mediasiya prosesi zamanı konfidensiallıq təmin edilirmi?

Tərəflər arasında ayrı şərt müəyyən edilməyibsə, mediasiya qapalı keçirilir.

Mediasiya iştirakçılarının və mediasiyada iştirak edən digər şəxslərin onlara mediasiya zamanı məlum olan məlumatları məhkəmə və arbitraj (münsiflər məhkəməsi) proseslərində, başqa mediasiya zamanı və ya hər hansı digər hallarda açıqlamaq və ya onlara istinad etmək hüququ yoxdur (həmin məlumatı verən tərəfin yazılı razılığı olduğu hallar istisna olmaqla) və belə məlumatlarla bağlı həmin şəxslər **şahid qismində iştirak edə bilməzlər**.



## Tərəflər mediator və ya mediasiya təşkilatı barədə razılığa gəlmədikdə mediator necə təyin olunur?

Tərəflər mediator və ya mediasiya təşkilatı barədə razılığa gəlmədikdə, ilkin mediasiya sessiyası tərəflərdən hər hansı birinin ilkin müraciət etdiyi, mübahisənin aidiyyəti üzrə aid olduğu məhkəmə ilə eyni şəhər və ya rayonda yerləşən mediasiya təşkilatı, həmin şəhər və ya rayonda mediasiya təşkilatı olmadıqda isə həmin məhkəmənin yerləşdiyi inzibati ərazi vahidinə ən yaxın şəhər və ya rayonlardan birində yerləşən mediasiya təşkilatı tərəfindən aparılır.

Məhkəmə ilə eyni şəhər və ya rayonda yerləşən mediasiya təşkilatı mövcud olmadıqda və ya həmin mediasiya təşkilatında işə baxılması mümkün olmadıqda, tərəflərdən hər hansı birinin müraciəti əsasında Mediasiya Şurası ilkin mediasiya sessiyasının aparılması üçün mediator müəyyən edə bilər.



## Məhkəmədə işə baxılarkən mediasiyaya müraciət etmək mümkündürmü?

Məhkəmə prosesinin istənilən mərhələsində məhkəmə işin hallarını nəzərə alaraq öz təşəbbüsü ilə, yaxud tərəflərdən birinin müraciəti əsasında onlara mübahisənin mediasiya vasitəsilə həllini təklif edə bilər. Tərəflər arasında “Mediasiya prosesinin tətbiqi barədə müqavilə” bağlanarsa, məhkəmə icraatı barışıq sazişi və mediasiya prosesinin nəticələri barədə protokol təqdim edilənədək dayandırılır.

Tərəflər arasında mübahisə mediasiya vasitəsilə həll edildikdə barışıq sazişi məhkəməyə təqdim olunur. **Məhkəmə təqdim edilmiş barışıq sazişini təsdiq etdikdə həmin iş üzrə icraata xitam verilir.**



## Kimlər mediator ola bilərlər?

Qanunun 10-cu maddəsində mediatora dair tələblər öz əksini tapmışdır. Həmin maddəyə görə 25 yaşı tamam olmuş, ali təhsilə və ya ən azı 3 illik iş stajına malik olan, mediatorların ilkin hazırlığı üzrə təlimi bitirərək müvafiq sertifikat almış şəxslər **mediator ola bilər**.

Məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olan, habelə məhkumluğu ödənilməmiş və ya götürülməmiş şəxslər **mediator ola bilməzlər**.

Nazirlər Kabinetinin 2019-cu il 5 sentyabr tarixli 383 nömrəli qərarı ilə **"Mediatorların hazırlığı və ixtisaslarının artırılması ilə bağlı təlim Qaydası"** (https://e-qanun.az/framework/43220) və 384 nömrəli qərarı ilə **"Mediatorların peşəkar etik davranış Qaydası"** (https://e-qanun.az/framework/43221) təsdiq edilmişdir.



## Mediator hansı halda mediasiyanı aparmaqdan imtina etməlidir?

Qanunun 7-ci maddəsinə görə mediasiya zamanı mediator müstəqil və qərəzsiz olmalıdır. Mediatorun qərəzsizliyinə mane olan hallar olduqda mediator mediasiyanı aparmaqdan imtina etməlidir.

## Mediatorların fəaliyyətinə hansı formada nəzarət olunur?

Mediatorların fəaliyyətinə nəzarət Mediasiya Şurası tərəfindən həyata keçirilir. Qanunun 18-ci maddəsinə görə Mediasiya Şurası mediasiya təşkilatlarının, mediatorların və mediasiya təlimi qurumlarının məcburi üzvlüyü əsasında yaradılan, fəaliyyətini özünüidarəetmə prinsipi üzrə həyata keçirən **qeyri-kommersiya hüquqi şəxsdir**.

Qanunun 20-ci maddəsində Mediasiya Şurasının **funksiyaları** öz əksini tapmışdır.

Qanunda eyni zamanda mediatorun **intizam məsuliyyəti, mediator fəaliyyətini həyata keçirmək hüququnun dayandırılması və ya mediatorun Mediasiya Şurasının üzvlüyündən çıxarılması üçün əsaslar** da müəyyən olunmuşdur (Qanunun 16 və 17-ci maddələri).



## Mediasiya reyestri nədir?

Qanunun 15-ci maddəsinə uyğun olaraq mediasiya təşkilatlarının, mediatorların və mediasiya təlimi qurumlarının siyahısının müəyyən edilməsi məqsədi ilə Mediasiya Şurası tərəfindən mediasiya reyestri aparılır. **Reyestrin aparılması qaydası** Nazirlər Kabinetinin 2019-cu il 5 sentyabr tarixli 386 nömrəli qərarı (https://e-qanun.az/framework/43223) ilə təsdiq edilmişdir.

## Mediasiyanın nəticələri hansı formada rəsmiləşdirilir?




Mediasiya tərəflər arasında mediasiya prosesi nəticəsində əldə edilən yazılı razılaşma, yəni **barışıq sazişi** ilə tamamlana bilər.
Barışıq sazişi, əgər sazişdə ayrı şərt nəzərdə tutulmayıbsa, imzalandığı gündən tərəflər üçün **məcburi xarakter daşıyır**.
Barışıq sazişində tərəflər arasında ayrı müddət müəyyən edilməyibsə barışıq sazişi imzalandığı gündən 10 gün müddətində könüllü şəkildə icra olunmalıdır.

## Barışıq sazişinin könüllü icrasından boyun qaçırıldıqda sazişin icrası ilə bağlı hansı tədbirlər görülə bilər?

Barışıq sazişinin könüllü icrasından boyun qaçırma Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq barışıq sazişində müəyyən olunan **məsuliyyətə səbəb olur**.
Əgər barışıq sazişinin könüllü icrasından imtina olunsa, tərəf barışıq sazişinin **məcburi icrası üçün məhkəməyə müraciət edə bilər** və barışıq sazişi məcburi icra edilməsi üçün məhkəmə tərəfindən müvafiq qaydada təsdiq olunur.

Mediasiya prosesi nəticəsində bağlanılmış barışıq sazişinin təsdiq edilməsinə dair işlər üzrə icraatın xüsusiyyətləri Azərbaycan Respublikasının **Mülki Prosessual Məcəlləsinin** 40-7-ci fəsli (https://e-qanun.az/framework/46945) ilə tənzimlənir.



# Mediasiya xərcləri

Mediator və ya mediasiya təşkilatı mediasiyanı ödənişli əsaslarla həyata keçirir. Mediator və ya mediasiya təşkilatı öz razılığı ilə mediasiyanı ödənişsiz əsaslarla da həyata keçirə bilər.
Ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə mediasiya xərclərini ödəmək üçün **kifayət qədər vəsaiti olmayan fiziki şəxsin mediasiya xərcləri dövlət büdcəsi vəsaiti hesabına ödənilir**. **“Mediasiya xərclərinin dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi Qaydası”** Nazirlər Kabinetinin 2019-cu il 16 avqust tarixli 360 nömrəli qərarı (https://e-qanun.az/framework/43096) ilə təsdiq edilmişdir.
“Mediasiya prosesinin tətbiqi barədə müqavilə”də və mediasiyaya dair qeyd-şərtdə başqa şərt nəzərdə tutulmayıbsa, həmçinin ilkin mediasiya sessiyasında tərəfin üzrsüz səbəbdən iştirak etməməsi halında digər tərəfin bütün mediasiya xərclərini ödədiyi hallar istisna olmaqla, mediasiyaya çəkilən xərclər tərəflər arasında bərabər şəkildə bölüşdürülür.

Mediasiya prosesinin nəticəsində **barışıq sazişi bağlanmadığı hallarda** məhkəmədən əvvəl mediasiya prosesi ilə bağlı xərclərin öz üzərinə düşən hissəsini ödəmiş tərəfin və ya Qanunun 36.2-ci maddəsinə uyğun olaraq mediasiya xərclərini ödəmiş tərəfin məhkəməyə müraciət edərkən **dövlət rüsumundan azad olunması** məsələsi “Dövlət rüsumu haqqında” Qanunun (https://e-qanun.az/framework/2860) 9.1-1-ci maddəsi ilə müəyyən edilir.
Məhkəməyə müraciət etdikdən sonra tərəflər arasında mediasiya prosesinin nəticəsində barışıq sazişi imzalanarsa, ödənilmiş dövlət rüsumu Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə uyğun olaraq **geri qaytarılır**.